Xeybər GÖYYALLI

Uşaqları aldatmaq olmur

Alman pedaqoqu, məktəbəqədər təbiyə nəzəriyyəçisi, uşaq bağçası ideyasının müəllifi və yaradıcısı Fridrix Fröbelin aşağıdakı məzmun daşıyan fikrini uşaq dünyası haqqında xayal edəndə tez-tez götürqoy edirəm: "Uşaq şəxsiyyətdir. Uşağın boyunun ölçüsü və yaşı balacadır. Onun şəxsiyyətini təhqir etməyin. Uşağı məhəbbətlə, sevgiylə böyüdün".

Ardınca elə bu yerdə adı çəkilən alman pedaqoqunun bir fikrinə də istinad etmək yerinə düşərdi: "Uşaqlar çiçək, təbiyəçilər bağbandır". Onu da çox haqlı deyiblər ki, pis uşaq yoxdur, pis tərbiyəçi var. O pis tərbiyəçilər də biz böyüklərik. Biz böyüklər də vaxtilə uşaq olsaq da, ancaq əfsuslar ki, uşaq dünyasını kifayət qədər həssaslıqla duyub-düşünə, qiymətləndirə bilmirik. Bu məqamda fikrimi qüvvətləndirmək üçün daha bir müdrik kəlama söykənmək istərdim. "Sən mənə uşaqlığından danış, sənin kim olduğunu deyim". Necə də sərrast deyilmiş ifadədir. Uşaq dünyasının formalaşmasında böyüklərin ciddi rolu vardır. İnsanların sonrakı həyat yolunda buraxdıqları səhvlərin də kökü bilavasitə uşaqlıq dünyası ilə bağlıdır. Uşaqlıq dünyasındakı "mənəvi boşluqlar" sonradan səhv əməllərlə doldurulur.

Bura qədər yazdıqlarımı yaziya giriş adlandırmaq düzgün olmazdı. Bunların birbaşa mətləbə dəxli var. Pak və məsum uşaq dünyasının "kərpiclərinin sıralanmasında" ana laylası qədər də "Əlifba" və "Ana dili" kitablarının müstəsnə rolu vardır. Uşaqların mənəvi dünyasının zənginləşməsində uşaq ədəbiyyatının əhəmiyyəti əvəzsizdir. Düha sahibləri uşaq beynini, uşaq təfəkkürünü təsadüfi yerə "Ağ lövhə" adlandırmamışlar. Uşaq vaxtı öyrənilən və öyrədilən informasiya (şeir, hekayə və s.) "daş üzərindəki yazıya" bənzeyir. "Daş üzərində yazıya" pozu olmadığı kimi, uşaqlıq dövründə öyrənilmiş ədəbi-bədii informasiyanı yaddaşlardan silib atmaq mümkün olmur. Həmin şeir və hekayələr insana ömrü boyu yoldaşlıq edir.

...Çoxlarımız uşaqlara yuxarıdan aşağı - heç nə başa düşməyən, yıxılıb-duran, yersiz ağlayan bir varlıq kimi baxırıq. Ancaq unuduruq ki, uşaqların könlü-gözü daha hassasdır. Bu həssas və zərif dünyanı alt-üst etmək yox, qurmalıyıq. Bu həssas və zərif, pak və məsum uşaq dünyasının qurulmasında uşaq ədəbiyyatı nümunələrinin rolunu heç nə ilə müqayisə etmək mümkün deyil. Azərbaycan uşaq ədəbiyyatı zaman-zaman yaddaşlarda yaşamış folklor nümunələri ilə başlayır. Sonra bu ədəbiyyatın ən yaddaqalan nümunələrini M.Ə.Sabir, A.Şaiq, A.Səhhət və başqa klassiklərimiz yaratmışlar.

Müasir uşaq ədəbiyyatının seçiyyəvi nümunələrinin yaradıcısı Rafiq Yusifoğludur. Rafiq Yusifoğlu özünü bütövlükdə uşaqlara həsr etmiş bir şairdir. Onun uşaq dunyasına bu qədər yaxın olması da təsadüfi deyil. O, müəllim ailəsində böyüyüb. Pedaqoji təhsil alıb. Müəllim işləyir. Uşaq dünyasının içərisindədir. Azərbaycan uşaq mətbuatının məhək daşlarından sayılan, uşaqların sevimlisi olan "Göyərçin" jurnalının uzun illər aparıcı əməkdaşı, xeyli müəddətdir ki, baş redaktorudur. Uşaqlar üçün yazmaq çox çətindir. Bəzi böyüklər belə güman edirlər ki, hər cür yazı-pozu ilə uşaqların başını aldatmaq olar. Uşaqları aldatmaq mümkün deyil. Hamımız razılaşarıq ki, uşaqlarda anadangəlmə eqoizm olur. Uşaq özünü hamıdan güclü və hamıdan ağıllı sayır. Unutmayaq ki, Tanrının uşaqlara bəxş etdiyi bəsirət gözünü "bağlamaq" mümkün deyildir. R.Yusifoğlu uşaq dünyasına - uşaq mühakiməsinə və uşaq məntiqinə hörmətlə yanaşıb. Onun şeirlərini oxuyanda ilk növbədə səmimiyyətlə tanış oluruq. Riya və hiylədən çox-çox uzaq olan uşaq dünyasının bütövlükdə panoramını görürük.

Rafiq Yusifoğlunun şeirləri klassik və müasir uşaq şeirlərindən küll halında fərqlənir. Bu ciddi fərqi ortaya qoyan onun şeirlərindəki obrazlılıqdır. Bu məqamda bəzilərі hövsələsizliklə etiraz edər ki, heç obrazlılığı olmayan şeir varmı? Unutmayaq ki, uşaq şeirlərində, adətən, obrazlılıq olmur. Bu mövcud ənənəni ilk dəfə qırmaq R.Yusifoğluna nəsib olub. Obrazlılıq yalnız şeirin ziqzaq, parıltılı paltarı deyil, o həm də uşaqların təfəkkürünü zənginləşdirir. Obrazlılıq uşaq intellektinin və yaradıcılığının inkişafına təkan verir. Belə ki, obrazlı ifadə ilə üze-üze qalmış uşaqda təəccüb və maraq hissi güclü şəkildə baş qaldırır. Uşaq beynində axtarışa başlayır, min suala min bir cavab tapır. Texnologiyalar əsrinin uşaqları isə daha "çoxbilmiş"dilər. Bu "çoxbilmiş" uşaqlar üçün indi şeir yazmaq daha çətindir. Qloballaşan dünyaya tərəf addımlayan Azərbaycan uşaqlarının intellektinin inkişafı üçün yeni texnologiyalarla bərabər, onların mənəvi dünyasını zənginləşdirən uşaq ədəbiyyatının da əvəzsiz rolu danılmazdır. Texniki, texnoloji təkəkkürün inkişafı alqışlanasıdır. Ancaq mənəvi dünyanın zənginləşməsi daha mühümdür.

...Adətən, uşaq şeirləri həcmcə kiçik, məna və məzmunca lakonik olur. Bunu Federiko Qarsia Lorka obrazlı şəkildə mənalandırmışdı. Ondan şeirlərinin həcmcə kiçik olmasının səbəbini soruşanda belə cavab vermişdir: "Mən şeir yazanda gözlərimin qabağında həmişə balaca bir qız uşağı canlanır. Həmin balaca qız uşağı özündən hündür gülü dərməyə çalışır, ancaq əli çatmır".

R.Yusifoğlunun uşaq şeirlərinin əksəriyyəti həcmcə kiçikdir. Onun elə şeirləri var ki, cəmi iki misradan ibarətdir. Bu iki misrada epik bir məzmun verilib.

R.Yusifoğlunun uşaq şeirləri üçün xarakterik olan bir məsələni də bu məqamda qeyd etmək yerinə düşər. Onun uşaq şeirlərinə güclü bir kolorit xasdır. Texnoloji eranın yaşıdı olan uşaqlara xalqın keçmiş həyat tərzini, məişətini xatırladır. Şair uşaqları çoxdan sıradan çıxmış məişət əşyaları ilə tanış edir. ("Sapand", "Ərsin, oxlov və sac", "Sicim və çatı", "Kirkirə", və s.) İnanıram ki, artıq muzeylərin eksponatına çevrilmiş həmin məişət əşyaları uşaqlar üçün maraqlı olar.

Rafiq Yusifoğlu bütün ömür-gününü uşaqlara - uşaq ədəbiyyatına həsr edib. O, vaxtilə Moskvada keçirilmiş uşaq şairlərinin hər üç Ümumittifaq və 1989-cu ildə Qazaxıstanda gerçəkləşmiş Beynəlxalq uşaq seminarlarının iştirakçısı olmuşdur.

O, həm də uşaq şeirlərinin ustad tərcüməçisidir. F.Lorkanın, S.Yeseninin, belorus şairi Edi Oqnesvet, Ukrayna şairi Vasili Maruqa və başqalarının şeirlərini dilimizə tərcümə etmişdir. "Dünya xalqlarının nağılları", "Ədalətli hakim", "Möcüzəli xəzinə" kitablarını da Azərbaycan dilində nəşr etdirmişdir.

Uşaq ədəbiyyatımız bu gün

Rafiq YUSİFOĞLU

Ay yorulub

Axşamüstü sahildə
Yenə qızışıb meydan.
Biz qaçırıq, bizimlə
Yanaşı qaçır ay da.

Tənginəfəsdir, bunu
Boynuna almır Günay.
Deyir: - Ata, yorulub,
Dayanaq, dincəlsin ay...

Ulduz söndürən oğlan

Atanın qucağında
Gündüz balkona çıxdı.
Yoxdur bir çəngə bulud,
Göyün üzü açıqdı.

Ulduzlar xırda-xırda,
Ulduzlar parlaq, sarı.
Gündüz "üf, üf!" eləyib,
Dartınır göyə sarı.

Ağlı şama gedibdir,
Boylanaraq hündürə.
İstəyir ki, üfürüb,
Ulduzları söndürə...

Səhər dərərsən

Yatmaz layla çalmasan,
Şeir sevəndir Vüsal.
- Yuxum gəlmir, ay nənə,
Tez ol mənə layla çal!
- "Layla çaldım həmişə,
Qoyun enər enişə.
Yastığında gül bitsin,
Döşəyində bənövşə".
- Doğrudan gül bitəcək,
Yastığımda, nənəcan?
Söylə, bənövşələri
Dərəcəyəm mən haçan?
- Əgər yatsan, yuxunda
Çiçəkləri görərsən.
Onlar gecə bitəcək,
Səhər durub dərərsən.

Dənizi oyadan qız

Qızım hər səhər durub
Söyləyir ki, ay ata,
Tez ol gedək dənizi
Yuxusundan oyadaq.
Qoşulub mənə gedir
Xəzərin sahilinə,
Balıqqulaqlarını
Götürərək əlinə
Atır suyun içinə,
Sonra deyir Aybəniz:
- Tez ol, oyan yuxudan,
Tez ol, tez ol, ay dəniz...

Nənə və nəvə

Nənə uzandı,
Oynadı nəvə.
Onu yatmağa
Qoymadı nəvə.

- Nə üçün səs-küy
Salırsan, atam?
Niyə qoymadın
Bir azca yatam?!

Böyümək istəyirəm

Hələ uşaqsan deyir
Atam, anam üzümə.
Hamıdan balacayam -
Heç kim baxmır sözümə.
Küçəyə gedirəm mən
Anam qışqırır aman,
Axı hələ uşaqsan,
Babanla get, bir dayan.
Hər nəyə toxunuram
Deyir, əl vurma, sınar.
Özümə çay süzürəm,
Deyir: Əllərin yanar.
Mən artıq böyümüşəm
Gərək qalmaqal salam.
Bircə nənəm söyləyir:
Ay mənim kişi balam!

Dələ

Yuvasından çıxıb çölə
Ağacdan tez düşdü dələ.
Çox boylandı sağa-sola
Düşdü uzaq dərə yola.
Gördü batıb qana-tərə
Siçan qoz yığıb bir yerə.
Dələ siçandan xəlvəti
Doldurdu qozla səbəti.
Tez gizlətdi yuvasında,
Yarpaqların arasında.
Götürdü bir qozu yesin,
Öz-özünə sağ ol desin.
Qoz dişini dibdən qırdı,
Dələ ağrıdan qışqırdı.
Dedi: Uzaq heç getmərəm,
Daha oğurluq etmərəm.

Hiyləgər tülkü

Tülkü çay kənarında
Rastlaşdı alabaşla.
Dedi: Günahlarımı
Sən, nə olar, bağışla.

Tülkünün hiyləsini
Anlamadı alabaş.
Şirin sözlər eşidib
Alabaş oldu çaşbaş.

Tülkü dedi: bu gecə
Qonaq gəlsən nə olar?
O qaranlıq yuvama,
İnan ki, işıq dolar.

Tülkünün yuvasında
Alabaş yedi, yatdı.
Sübh tezdən alabaşı
Qışqırıqlar oyatdı.

Alabaşı yatırıb
Tülkü getmişdi kəndə
Bircə dənə toyuq da
Qoymamışdı o, hində.

Tülkünün hiyləsini
İndi duydu alabaş
Kəndə dönə bilmədi -
Meşədə qaldı çaşbaş.

Aygün BAL

Daş ürəklərdə yanıb, daşları sındıran muğam

Bu günlər "Alma" adlanan (?) qəzetdə "Muğmın 1-qanunu" adlı yazıda Azərbaycanlıların heysiyyatına, onun mentalitetinə, mənəviyyatına təhqiramiz fikirlər söylənilmişdir. Bir Azərbaycanlı kimi bu cızma-qaraları oxuyanda bir az hiddətləndim, sonradan isə özümdə toxtahlıq yaradıb fikir etdim ki, "Alma" nə olan qəzetdir ki, mənəviyyatımızı əks etdirən ulu muğam sənətinə qiymət verə bilsin. Deyəsən bu qəzet Azərbaycanlıların heysiyyatına toxumaqla "məşhur" olmaq xəyalına düşüb.

Bununla bağlı dilimizi, dinimizi, bütövlükdə xalqımızın keçmişini əks etdirən muğama düşmən kəsilən bəzi qüvvələrə aşağıdakı fikirlərimi çatdırmaq istəyirəm: Muğam təkcə Azərbaycanın deyil, Şərqin qədim müsiqi janrlarındandır.

Muğam janrı Şərq xalqlarının və eləcə də Azərbaycanın mədəni həyatında, onların mənəvi dünyalarının formalaşmasında və zənginləşdirilməsində həlledici rol oynadığı üçün bu xalqların və ölkələrin sənaməsində dərin izlər buraxmışdır. Azərbaycan xalqının həyatına, məişətinə sirayət etmiş düşüncə tərzi olan muğam kamilliyə doğru gedən yolun başlağıcıdır, həyatı, kainatı dərk etmək üçün Allah tərəfindən insanlara verilmiş vasitədər. Sənətşünaslıq doktoru Rafiq İmranı muğam sənətinin gücünü çox gözəl ifadə edərək göstərir ki, kamil insanın yetişməsində muğamın rolu böyükdür, çünki kamil insan sağlam cəmiyyətin atributudur, muğam isə milli təfəkkürün formalaşmasında kamil sözdür.

"Muğam keyf məclislərində ifa edilən əyləncə", "külfətinin sayını çoxaltmaq" üçün vasitə deyil. Bu milli ənənələrə bağlı yaradıcı, kamil sənətkarlıq təfəkkürünün məhsulu olduğu üçün cəmiyyətin təkanverici qüvvəsi olan sağlam insan nəslinin mənəvi cəhədən zənginləşməsində, saflaşmasında, həyatı dərk etməsində əvəzsiz rol oynayan qeyri-maddi irsin gözəl abidələrindən biridir.

Muğam sənətində bütövlükdə Azərbaycanın şanlı tarixi əks olunmuşdur. Muğama qulaq asanda xalqımızın qəhramanlıq dolu səhnəməsi və onun başına gətirilən mərhumniyyətlər göz önünə gəlir, keşməkeşli tariximiz xatırlanır, musiqinin bu müdrik növü düşmənə fürsət verməmək barədə bizlərə xəbərdarlıq edir, ayıq-sayıq olmaq məharəti aşılayır.

Buna misal olaraq:

Şuşanın dağları başı dumanlı,
Dərdindən ölməyə çoxdur gümanlı

və ya:

Bura Şuşadır, Şuşadır, balam, Şuşadır.

Gülü qoşadır, qoşadır balam, qoşadır

deyimləri bizə düşmən təcavüzündən, əzəli torpaqlarımızın bədnam qonşularımız tərəfindən təhlükədə olduğu barədə əvvəlcədən verilmiş siqnal deyildimi? Bu barədə çoxlu misallar gətirmək olar. Müqəddəs sənət növü olan muğamızın inkişaf etdirilib yaşadılması barədə son zamnlar Heydər Əliyev Fondunun sədri, YUNESKO-nun Xoşməramlı Səfiri Mehriban Əliyevanın çoxcəhətli fəaliyyəti təqdirləyiqdir. Muğama göstərilən diqqətin və qayğının nəticəsidir ki, artıq 2002-ci ildən başlayaraq Astarada iki ildən bir-yəni 2002-2004-ə 2006-cı illərdə uşaq muğam ifaçılarının müsabiqəsi keçirilmişdir. Bu müsabiqələrdə Azərbaycanın demək olar ki, bütün bölgələrindən uşaq muğam ifaçıları çox həvəslə iştirak edmiş, ən gözəl hazırlıqla neçə-neçə ifaçı mədəni irsin ən mükəmməl nümunələrindən olan muğam müsabiqəsində qalibər sırasına daxil olmuşdur. Artıq tarixə çevrilmiş bu müsabiqələrin nətitcələrindən belə bir qənətə gəlinir ki, gənclərimizin muğam sənətinə maraqı və böyük həvəsi bu sənətin gələcəyinin daha parlaq olmasınndan xəbər verir.

Görünür, sözü gedən "Alma" qəzetində Azərbaycanlıların tarixi kökünə öz əxlaqi prizması ilə baxan yazı müəllifinə muğamın nə olduğu və cəmiyyətdə hansı mövqeyə malik olması bərədə çoxlu mütaliyələr etmək tövsiyə olunmalıdır.

Muğam Azərbaycan-türk dünyasının insanlarına Allahın bəxş etdiyi zənginliklər sırasındandır və o əbədiyaşardır.

Əfqan Şəfiyev
Astara rayon Mədaniyət və turizm şöbəsinin məslahtçi-inspektoru, YUNESKO-nun BMŞ-nın həqiqi üzvü

40 yaşlı jurnal

Həsən bəy Zərdabi tərəfindən 1875 - ci ilin 22 iyununda "Əkinçi" qəzeti ilə əsası qoyulan Azərbaycan mətbuatı daim inkişaf etmiş, bu gün də uğurlu fəaliyyət göstərməklə davam edir.

Həmin mətbuat nümunələrindən biri də "Mədəni - Maarif" jurnalıdır. 1967 - ci ildən fəaliyyət göstərən jurnal öz aktual yazıları, mədəniyyətimizlə bağlı rəngarəng mövzuları ilə Azərbaycan mətbuat sahəsində özünəməxsus yüksək yerlərdən birini tutmuşdur. Ölkəmizdə və ondan kənarda mədəniyyətimizlə bağlı bütün mövzular bu mətbu orqan vasitəsi ilə oxuculara vaxtında çatdırılır. Elə bu gözəl ənənələrinə görə 40 ildir ki, "Mədəni - Maarif" jurnalı uğurla fəaliyyət göstərərək öz oxucularının sevimlisinə çevrilmişdir.

Kürdəmir rayon Mədəniyyət və Turizm şöbəsi hər il abunə yolu ilə "Mədəni - Maarif" jurnalı alır və bu jurnalları şöbənin nəzdində fəaliyyət göstərən mədəni-maarif müəssisələri arasında bölüşdürür. Rayon MKS - də "Mədəni - Maarif" jurnalının bütün sayları kitabxananın oxu zalında 5 il müddətində saxlanılaraq oxucuların istifadəsinə verilir. Oxu zalının müdiri Dilbər Zərbəlilinin qeyd etdiyinə görə, kitabxanada ötən il ən çox istifadə edilən mətbuat nümunələrindən biri də "Mədəni - Maarif" jurnalı olmuşdur.

Jurnalının 40 illiyi münasibəti ilə MKS - nin metodika-biblioqrafiya şöbəsi MKS - də və onun filiallarında, "Mədəni - Maarif jurnalı - 40" adlı sərgilər təşkil etmişdir. Sərgilərdə "Mədəni - Maarif" jurnalının müxtəlif illərdə nəşr edilən bir çox nümunələri nümayiş etdirilir.

Kürdəmir rayon MKS - nin oxu zalında "Mədəni - Maarif" jurnalının 40 illiyi münasibəti ilə dəyirmi masa keçirilmişdir. Tədbirdə Kürdəmir rayon Mədəniyyət və Turizm şöbəsinin müdiri Vaqif Alıyev "Mədəni - Maarif jurnalının oxucuların həyatında rolu" adlı geniş məruzə etmişdir. Kürdəmir rayon Mədəniyyət və Turizm şöbəsinin müfəttişi əvəzi İslam Bağırov, MKS - nin direktoru Şahalı Şıxəliyev, oxu zalının müdiri Dilbər Zərbəlili, MKS - nin metodika-biblioqrafiya şöbəsinin baş metodisti Atlas Ömərova, 60 saylı kitabxana filialının müdiri Fəzilə Əliyeva, Kürdəmir Dövlət Rəsm Qalereyasının baş fond mühafizəçisi Kəmalə Məmmədova, MKS - nin fəal oxucuları Nurənə Məmmədova, Röyal Yunusov və s. iştirakçılar məruzə ətrafında çıxış edərək jurnalının oxucuların həyatında yüksək rolunu dönə-dönə qeyd etmişdilər. İştirakçılar "Mədəni -Maarif" jurnalının Azərbaycan mətbuatının ən gözəl nümunələrdən biri olduğunu qeyd edərək göstərmişlər ki, bu jurnal mədəniyyət işçiləri ilə yanaşı bir çox oxucuların ən sevimli bir jurnalıdır.

Tədbir böyük ruh yüksəkliyi ilə başa çatmışdır.

Məryəm Əliyeva
Kürdəmir rayon MKS - nın Metodika Biblioqrafiya şöbəsinin baş kitabxanaçısı